# Birinci vitse-prezident Mehriban Əliyeva Paralimpiya Oyunlarında qızıl medal qazanan İmaməddin Xəlilovu təbrik edib




Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Azərbaycan parataekvondoçusu İmaməddin Xəlilovun "Paris-2024" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanması ilə bağlı paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:

"Azərbaycan parataekvondoçusu İmaməddin Xəlilov - qızıl medal! Türkiyə parataekvondoçusu Fatih Çelik - gümüş medal! Hər iki idmançını təbrik edir, onlara yeni qələbələr arzulayıram! Uca Allah Azərbaycanı və Türkiyəni qorusun!"



Azərbaycan.- 2024.- 1 sentyabr (№ 188).- S.1.